# Müəllimlik çətin və şərəfli peşədir



Hər il oktyabr ayının 5-də müəllimlər ənənəvi olaraq peşə bayramlarını —Beynəlxalq Müəllimlər Gününü qeyd edirlər. Bu tarixin qeyd edilməsinə dair qərarı ilk dəfə 1966-cı il oktyabrın 5-də YUNESKO imzalayıb. Belə ki, təşkilatda müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd qəbul edilib. İndi dünyanın 100-dən çox ölkəsində oktyabrın 5-də müəllimlər peşə bayramını qeyd edirlər. Bu tarixi gün bütövlükdə dünyada müəllimlərin fəaliyyətinə verilən yüksək qiymətin, dərin hörmətin ifadəsidir. Hansı ölkədə fəaliyyət göstərmələrindən asılı olmayaraq, müəllimlər cəmiyyətin ən nüfuzlu, ən mötəbər insanlarıdır.

Ümummilli liderimiz Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirmiş, müəllim haqqında xoş sözlər söyləmişdir. O, öz müəllimlərini minnətdarlıqla xatırlayar, onların xidmətləri haqqında ürəkdolusu danışardı. Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə həmişə müəllimə hörmət və ehtiramla yanaşmış, onların maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılması qayğısına qalmışdır. O deyirdi: “Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir”.

1993-cü ilin iyununda xalqın tələbi ilə hakimiyyətə qayıdan ümummilli liderimiz ictimaiyyət nümayəndələri ilə ilk görüş yeri kimi Elmlər Akademiyasını seçməklə intellektual potensialın daşıyıcıları olan müəllimlərin, alimlərin cəmiyyətdəki roluna böyük önəm verdiyini izhar etmişdir.

Ulu öndərimizin imzaladığı bütün sənədlərdə irəli sürülən vəzifələrə uyğun olaraq milli təhsilimizin məzmunca təkmilləşdirilməsi, müasir dünya təcrübəsi və milli ənənələr əsasında inkişafı təmin edilmiş, azərbaycançılıq ideologiyasını özündə əks etdirən tədris proqramları, çoxsaylı dərsliklər hazırlanmış, ayrı-ayrı təhsil sahələri və fənlər üzrə yeni standartlar tətbiq edilmişdir.

Ömrünü gənc nəslin maariflənməsinə həsr etmiş müəllimlərimizin, elm sahəsində çalışan insanlarımızın sosial problemləri də diqqətdən kənarda qalmamış, onların məvacibləri ardıcıl olaraq artırılmış, elmi-pedaqoji kontingent dövlət qayğısı ilə əhatə olunmuş, şərəfli ictimai status sayılan alim-müəllim adının cəmiyyətdəki nüfuzu yenidən bərpa edilmişdir.

Hər kəs özünün ibtidai məktəbdə, birinci sinifdə oxuduğu illəri xoş xatirə kimi anır və bu xatirələrdə ən əziz yeri, əlbəttə ki, ona sevgi və qayğı ilə qələm tutmağı, yazı yazmağı, kitab oxumağı öyrədən müəllim tutur. Bu gün də hər bir azərbaycanlı cəmiyyətdəki mövqeyinə, qazandığı biliklərə, ümumən bir şəxsiyyət kimi formalaşmasına görə özünü məhz xeyirxah müəllimlərinə borclu sayır.

Bakı şəhər Sabunçu rayonu N.İsmayılov adına tam orta məktəb 1969-cu ildə fəaliyyətə başlayıb. Ulu öndər Heydər Əliyevin sərəncamı ilə ilk milli məktəb kimi yaradılıb. Ulu öndər ilk dəfə 1975-ci ildə məktəbimizin qonağı olmuşdur. Bütün dövrlərdə bizim tədris müəssisəsinə qayğı ilə yanaşmışdır. Məktəbimiz uzun illər Təhsil Nazirliyinin baza məktəbi olmuşdur. İldən-ilə məktəbin uğurları artmaqda davam etmişdir. 2014-cü ildə yeni korpusu istifadəyə verilmiş, məktəbimiz əsaslı təmir edilmişdir.

Hazırda məktəbdə 1496 şagird təhsil alır. Onların təhsili, təlim-tərbiyəsi ilə 99 müəllim məşğul olur. Tədris müəssisəsində 36 kompüter şagirdlərin ixtiyarına verilib.

Bu gün də öyünməli çox uğurlarımız vardır. Qeyd edim ki, 2010-cu ildə məktəbimiz Təhsil Nazirliyi tərəfindən keçirilən “İlin məktəbi” müsabiqəsinin qalibi olmuşdur. Hər il bir neçə məzunumuz 600-dən çox bal toplayaraq ali məktəblərə qəbul olunurlar.

Şagirdlərimiz Bakı və respublika üzrə keçirilən olimpiada və müsabiqələrin qalibi olur, mükafatlar qazanırlar.

Məktəbimizdə idmana xüsusi qayğı ilə yanaşılır. Qeyd edim ki, “Bakı-2015” İlk Avropa Oyunlarında məktəbimizin şagirdi Nazim Babayev yüngül atletika üzrə ən yaxşı nəticə göstərmişdir.

24 oktyabr 2013-cü il tarixdə ölkə Prezidenti cənab İlham Əliyev “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nı təsdiq etmişdir. Bu sənədin əsas məqsədi keyfiyyət səviyyəsinə görə dünyada qabaqcıl mövqe tutan təhsil sistemi formalaşdırmaqdır. Strategiyanın reallaşdırılması təhsilin məzmununun, kadr hazırlığının, təhsildə idarəetmənin yenidən qurulmasına imkan verəcək, davamlı inkişafı təmin edəcək. Bu hədəflərə çatmaq üçün Təhsil Nazirliyi tərəfindən ardıcıl olaraq işlər görülür, tədbirlər həyata keçirilir.

Ümummilli liderin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün respublikamızda həyata keçirilən genişmiqyaslı islahatların qayəsində məhz təhsilin səviyyəsinin yüksəldilməsi, müəllim adının və nüfuzunun qaldırılması məsələləri dayanır. Həyata keçirilən tədbirlər deməyə əsas verir ki, respublikamız yaxın gələcəkdə dayanıqlı iqtisadi inkişaf tempini heç də neft gəlirləri hesabına deyil, məhz bilik, müasir informasiya texnologiyaları, elm tutumlu sahələrin dinamik inkişafı sayəsində təmin edəcəkdir.

**Əlislam ABASQULİYEV,**
**N.İsmayılov adına**
**80 nömrəli tam orta məktəbin**
**direktoru.**